Elm .- 2026.- 23 yanvar (№ 3).- S.8.

# Folklor İnstitutunun əməkdaşının dərs vəsaiti nəşr olunub

**AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru, professor Almaz Həsənqızının "Folklorşünaslığa giriş" (Bakı, Turan evi, 2025, 284 s.) adlı kitabı işıq üzü görüb.**




Dərs vəsaitinin ilk nəşri 2015-ci ildə yayımlanıb. Ötən müddət ərzində müəllif əsər üzərində ciddi şəkildə işləmiş, onu təkmilləşdirmiş, bəzi fəsillər ("Folklor və fəlsəfə", "Folklor və məntiq") əlavə edərək, yeni elmi qaynaqlarla zənginləşdirmişdir.

Bilindiyi kimi, son illərdə ali və orta məktəblərdə yeni tədris üsullarından istifadə zamanı, innovativ metodların tətbiqi prosesində fənlərarası əlaqələrin genisləndirilməsi, multidisiplinar təhlilin vacibliyi məsələsinə xüsusi diqqət yetirilməkdədir. Məhz bu amil nəzərə alınaraq, indiyədək yazılan dərsliklərdə ötəri şəkildə bəhs olunan bir məsələ - folklorun digər elmlərlə əlaqəsi problemi kitabda fərqli şəkildə qoyulmuş, daha ətraflı şərh edilmişdir. Burada folklorun mifologiya, yazılı ədəbiyyat, dilçilik, tarix, coğrafiya, din, pedaqogika, psixologiya, riyaziyyat, musiqi, təbabət, kulinariya və s. ilə bağlılığı problemi mətnlərə istinad edilməklə araşdırılıb.

Kitabda mövzu ilə bağlı ən mühüm nəzəri mənbələrə istinad olunmuş, Türkiyədə, Azərbaycanın Güneyində və mühacirətdə folklorla bağlı yaranan tədqiqatlara xüsusi yer verilib.

"Folklorşünaslığa giriş" kitabı ali məktəblərin humanitar fakültələrinin bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Eyni zamanda, əsərdən folklorla bağlı araşdırma aparan tədqiqatçılar, həmin fənni tədris edən mütəxəssislər də istifadə edə bilərlər.

Qeyd edək ki, AMEA Folklor İnstitutunun dəstəyi və Bakı Qızlar Universiteti Elmi Şurasının qərarı ilə nəşr olunan kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Məhərrəm Qasımlı, rəyçiləri filologiya elmləri doktoru, professor Cəlil Qəriboğlu və filologiya elmləri doktoru, professor Ülkər Nəbiyevadır.